4 aprel Beynəlxalq Mina Xəbərdarlığı və Mina Aksiyalarına Yardım Günüdür

# Təhlükəsizliyin təminatçıları

## *Həyatları sürprizlərlə dolu olan minaaxtaranlar bu peşəni sevərək seçirlər*













Onlar nə qədər təhlükəli olsa da, hər gün "gizli qatil" axtarışına çıxırlar. Bilirlər ki, bircə səhvləri ölümdür - ya özləri, ya da digərləri üçün. Elə bu səbəbdən də daim psixoloji cəhətdən hazırlıqlı və çox diqqətli olurlar. Bununla da həm özlərinin, həm də digərlərinin təhlükəsizliyinə təminat verirlər.

Yəqin, söhbətin hansı peşədən getdiyi bəlli oldu. Bəli, onlar minaaxtaranlardır. Barələrində danışılanda hətta məktəbli də bu məlum kəlamı xatırlayır: onlar bir dəfə səhv edirlər, o da bu peşəni seçəndə.

Əslində isə yanlış imiş bu fikir. Çünki son araşdırmalara görə, dünyada peşələrdəki səhvlər üzündən baş verən qəzalarda ən az həlak olanlar minaaxtaranlardır. Çünki bu peşənin sahibi qarşısındakı ümumi təhlükəni gördüyü üçün hər an diqqətli, ayıqsayıq və hazırlıqlı olur. Məhz buna görə də bu peşə dünyada mövcud olan 240 peşə arasında ən maraqlılardan biri hesab olunur.

### Xızıda yeraltı təmizləmə əməliyyatı

Bu gün dünyada Beynəlxalq Mina Xəbərdarlığı və Mina Aksiyalarına Yardım Günü olduğunu nəzərə alaraq minaaxtaranların bir iş günü ilə yaxından tanış olmaq qərarına gəldik. Azərbaycan Respublikası Ərazilərinin Minalardan Təmizlənməsi üzrə Milli Agentliyə (ANAMA) etdiyimiz müraciətin müsbət cavablandırılması ilə qurumun Xızı rayonu ərazisində fəaliyyətdə olan Xüsusi Mobil Çevik Əməliyyat Qrupunun olduğu məkana üz tutduq.

Əraziyə elə vaxtında çatmışdıq. Çünki hələ iş başlamamışdı. ANAMA-nın Xüsusi Mobil Çevik Əməliyyat Qrupunun supervayzeri Böyükağa Haqverdiyev axtarışa başlayacaq heyəti təlimatlandırırdı. Kənardan müşahidələr apara-apara ANAMA-nın əməliyyatlar üzrə mütəxəssisi İdris İsmayılovla söhbətləşirik. Mütəxəssis deyir ki, ötən ilin avqust ayında Xızı rayonu ərazisində yerləşən "N" saylı hərbi hissənin sursat anbarında baş vermiş partlayışdan sonra ANAMA 200 nəfərdən ibarət işçi heyəti ilə ərazidə təmizləmə əməliyyatlarına başlayıb və bu il fevral ayının 11-də işləri başa çatdırıb. Hazırda ərazidə yeraltı təmizləmə əməliyyatları aparılır. Bir müddətdən sonra isə Giləzi qəsəbəsi, Sitalçay, Şurabad və Məşədihəsən kəndlərində əkin sahələri kimi istifadə edilən ərazilərdə təmizləmə işləri görüləcək.

### Tərkibində iynənin ucu boyda metal olan minanı tapan cihazlar

Təlimat bitir və bütün təchizatla tam təmin olunan heyət əraziyə yollanır. Bir nəfər "Ferex"lə (yerin 6-8 metr dərinliyinə qədər olan məsafənin rentgenini aparan avadanlıq) müəyyən trayektoriya ilə hərəkət edir. Yəni 8 metr dərinliyə qədər torpağın altında tərkibində dəmir olan bütün əşyaları müəyyənləşdirir. Sonra ərazidən kənara çıxaraq aparatın müəyyən etdiyi yaddaşı kompüterə köçürür. Qrup rəhbəri bu görüntülərə baxaraq qərarlar verir.

"Ferex"lə hərəkət edən şəxsdən bir qədər aralıda isə iki nəfər bir-birindən 4-5 addım məsafə aralığında "Şonsted"lə, yəni əldə tutulan maqnit lokatorlarla axtarış aparırlar. Onlardan bir qədər arxada isə qrup rəhbəri hərəkət edir. Əgər hər hansı bir detal aşkarlanırsa, minaaxtaran şəxs dayanıb bir əlini havaya qaldırır. Bunu görən qrup rəhbəri ona yaxınlaşır və ilkin yoxlama aparıb öz göstərişini verir. Bundan sonra qazılma əməliyyatına başlanılır. Əgər tapılan metaldırsa, metaltoplama ərazisinə, partlamamış hərbi sursatdırsa, sursatların müvəqqəti saxlanması ərazisinə təhvil verilir.

Bundan başqa, bəzi hallarda maqnit detektorla da axtarışlar aparılır. Bu cihaz hətta tərkibində iynənin ucu boyda metal olan minanı da müəyyən edə bilir.

### Sürprizlərlə dolu minaaxtaran həyatı

45 dəqiqə ərazidə hərəkətdən sonra 15 dəqiqə fasilə verilir. Bundan istifadə edərək qrup üzvləri ilə söhbətləşirik.

16 ildir bu peşədə çalışan supervayzer Böyükağa Haqverdiyev deyir ki, hər səhər işə başlamazdan əvvəl minaaxtaranların psixoloji durumu və işə hazırlığı yoxlanılır. Minaaxtaranlardan biri kefsiz və yorğun olarsa və ya dünən toy mərasimində spirtli içki qəbul edibsə, səhəri gün əməliyyatdan azad edilir. Bir sözlə, əməliyyatçının əraziyə çıxarkən heç bir problemi olmamalıdır. Onun ən az fikrə getməsi belə böyük faciəyə səbəb ola bilər.

Bəzən isə maraqlı tapıntılar, yeni qədim dövrə aid dəmir, mis, tunc qablar, qızıl sikkələr aşkarlanır. B.Haqverdiyev deyir ki, belə hallar tez-tez olur: "Sonuncu dəfə mobil qrup Ağdamda işləyərkən antik dövrlərə aid əşyalar tapmışdı. Əməliyyatçılar axtarış zamanı torpağın altından küp çıxarmışdılar. Onun içərisində qədim dövrlərə aid əşyalar və dəmir pullar var idi. Hamısını Ağdam Diyarşünaslıq Muzeyinə təhvil verdik. Bəzən deyirlər ki, minaaxtaranlar tez-tez qızıl-zinət əşyaları tapırlar. Bu, belə deyil".

### Minadan daha təhlükəli - ilan və əqrəb hücumları

Əməliyyat qrupunu daşıyan avtomobilin yanında dayanan təcili yardım maşını da diqqətimizi çəkir. Maşında ilkin tibbi yardım üçün hər şey var: xüsusi qabda qanı laxtalatmaq üçün buz, yaranı sıxmaq üçün rezin, ağrıkəsici iynələr və s. Bir qabda isə zərdab saxlanılır. İlan vurması, əqrəb sancması olarsa, dərhal zərdab vurulur və yaralı xəstəxanaya çatdırılır.

Minaaxtaranların qarşılaşdıqları digər "sürpriz" isə aşkarlanan detalların altından çıxan ilan və əqrəblərdir. Bəzi hallarda mina zərərsizləşdirilərək altından çıxan ilan onları sanca da bilir. Hətta bəzən elə ərazilər olur ki, oradakı gürzələr və əqrəblər elə minanın özü qədər təhlükəli olur. İlan və əqrəb hücumları minadan daha təhlükəlidir. Odur ki, minaaxtaranlar daim işlərini ehtiyatlı tuturlar.

Bir qədər sonra yenidən qrup üzvləri sahədə əməliyyata hazırlaşırlar. Biz isə cüzi səhvi belə bağışlamayan, ancaq maraqlı peşənin sahiblərinə təşəkkürümüzü bildirərək geri dönürük.

### ANAMA - hər zaman inkişaf və tərəqqiyə doğru

Bu il uğurlu fəaliyyətinin 20-ci ili tamam olan ANAMA daim inkişafa və tərəqqiyə can atıb, əhatə dairəsini genişləndirməyə doğru uzun bir yol keçib. Agentliyin qarşısında qoyulan əsas vəzifə Beynəlxalq Minatəmizləmə Standartlarını (BMS) dəstəkləyən Milli Minatəmizləmə Standartlarına uyğun şəkildə təmizlənməsi mümkün olan ərazilərdə və işğaldan azad edilən torpaqlarda humanitar minatəmizləmə işlərini həyata keçirməkdən ibarət idi.

Hazırda təşkilatın milli potensialı humanitar minatəmizləmə üçün bütün əsas resurs və vasitələrə: minaaxtaranlara, minaaxtaran itlərə, mexaniki minatəmizləmə maşınlarına, xüsusi təyinatlı dərin yoxlama cihazlarına, bu sahədə istifadə olunan ən müasir avadanlıqlara, regional bazalara, təlim mərkəzlərinə, Təlim, Tədqiqat və Keyfiyyətə Təminat Qurumuna və Xüsusi Mobil Çevik Əməliyyat Qrupuna malikdir. ANAMA-nın Mina Təhlükəsinə Dair Maarifləndirmə və Minadan Zərərçəkənlərə Yardım sahələrində də kifayət qədər təcrübəsi vardır.

### 490 nəfərlik peşəkar əməliyyat heyəti

Agentliyin yerinə yetirdiyi əməliyyatlarda 490 nəfər (beynəlxalq təlimlərdə iştirak etmiş) peşəkar əməliyyat heyəti və 136 nəfər inzibati heyət iştirak edir. Əməliyyatlarda 40 baş xüsusi təlim keçmiş minaaxtaran it, 6 ədəd Slovakiya və Xorvatiya istehsalı olan xüsusi təyinatlı mexaniki minatəmizləmə maşınları, eləcə də maqnetik lokator, minaaxtaran detektorlar və 6 metr dərinliyə qədər ölçən cihazdan istifadə edilir.

Ümumilikdə agentlik tərəfindən bugünədək 51,805,17 hektar ərazi yoxlanılıb, 792 320 ədəd partlamamış hərbi sursat, 549 ədəd piyada əleyhinə mina və 1282 ədəd tank əleyhinə mina aşkar olunaraq zərərsizləşdirilib.

Azərbaycan Ordusunun aprel zəfərindən sonra böyük qayıdışın ilk müjdəçisi olan Cəbrayıl rayonunun işğaldan azad olunmuş Cocuq Mərcanlı kəndinin bərpasından öncə ANAMA-nın qısa zaman ərzindəki fəaliyyəti də müsbət qiymətləndirilmelidir.

Çünki ərazinin mina və partlamamış hərbi sursatlardan təmizlənməsi əməliyyatlarının aparılması üçün agentliyə olunan müraciətə müvafiq olaraq 124 əməliyyat günü ərzində 352 hektar ərazi təmizlənib, 253 ədəd mina və partlamamış hərbi sursat aşkar edilərək zərərsizləşdirilib.

*Rəşad BAXŞƏLİYEV,*
*"Azərbaycan"*

Azərbaycan.- 2018.- 4 aprel.- S.11.